

**MURTUZ ƏLƏSGƏROV,**
Yeni Azərbaycan Partiyası sədrinin müavini,
Milli Məclisin sədri

# MÜSTƏQİLLİYİMİZİ "ƏBƏDİ, DÖNMƏZ VƏ SARSILMAZ" EDƏN QÜDRƏTLİ LİDER

Tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. İllər keçdikcə böyük şəxsiyyətlər dövrünün fövqünə yüksələrək, layiq olduqları yeri tuturlar. Lakin bəzən şəxsiyyətin tarixdə yerini müəyyənləşdirmək üçün zamana ehtiyac qalmır. Bu cür fenomenal insanlar bütövlükdə xalqın, millətin adını özündə ehtiva edirlər. Belə nadir şəxsiyyətlərdən biri də ötən əsrin və yeni minilliyin görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri, Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevdir.

Heydər Əliyevin fəaliyyəti dünya siyasət sənətinin xəzinəsinə daxil olmuş, onun adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilmişdir. Azərbaycan xalqının bütün tarixi ərzində yetirdiyi ən böyük siyasi və dövlət xadimlərindən biri olan Heydər Əliyev mənsub olduğu xalqı yeni minilliyə, XXI yüzilliyə, qloballaşma əsrinə hazırlayıb çatdıran ümummilli liderdir.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Heydər Əliyevin möhtəşəm siyasi və dövlətçilik fəaliyyəti ilə bağlıdır. Onun respublikaya ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə və dövlət həyatının bütün sahələrində misli görünməmiş canlanma baş verdi, qısa müddət ərzində ölkə əsrə bərabər inkişaf yolu keçdi. Bu illər tariximizə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəliş dövrü kimi daxil oldu. Yaradılmış əlverişli şərait cəmiyyətin potensial qüvvələrini hərəkətə gətirdi, bunun nəticəsində xalqımızın milli mənlik şüurunda böyük oyanış baş verdi. Məhz həmin dövrdə Heydər Əliyevin siyasi uzaq-görənliyi və müdrikliyi sayəsində Azərbaycanın gələcək dövlət müstəqilliyi üçün əsaslı zəmin və möhkəm bünövrə yaradıldı.

1982-ci ildən Sovet İttifaqının liderlərindən biri olduğu dövrdə də müdrik siyasətçi respublikanın hərtərəfli inkişafı üçün öz qüvvə və bacarığını əsirgəmirdi. O vaxt Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda ittifaq əhəmiyyətli bir sıra sənaye müəssisələrinin tikintisinə başlanılmış, iqtisadiyyatın, mədəniyyətin, elmin və digər sahələrin daha da inkişaf etdirilməsinə dair mühüm layihələr işlənib hazırlanmışdı. Azərbaycan həmin dövrdə Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin xüsusi diqqət və qayğı göstərdiyi respublika şöhrətini qazanmışdı. Heydər

Əliyevin Moskvada çalışması Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan qüvvələrin öz niyyətlərini gerçəkləşdirməsi yolunda ən böyük maneə idi.

1987-ci ilin oktyabr ayında Heydər Əliyevin SSRİ rəhbərliyində yüksək vəzifələrdən uzaqlaşdırılması ilə Azərbaycanın faciələrinin əsası qoyuldu. Məhz bu istefa respublikamıza qarşı hazırlanmış məkrli planların həyata keçirilməsi yolunda ilk addım oldu. Təsadüfi deyildir ki, bu hadisədən cəmi bir ay sonra qondarma "Dağlıq Qarabağ problemi" ortaya atılmış, daha sonra Ermənistan ərazisində yaşayan azərbaycanlıların gözümçıxdıya salınması və respublikamıza təzyiq kampaniyasına başlanılmışdır. Təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərləri yaranmış yeni şəraitdən baş çıxarmağa qadir deyildilər, mərkəzin bir çox hallarda Azərbaycanın ziyanına olan qərarlarını kor-koranə yerinə yetirməkdən başqa bir şey bacarmırdılar.

Nəticədə xalqımızı dünya ictimaiyyətinin gözündən salmaq, Azərbaycana qarşı çirkin planların həyata keçirilməsinə bəhanə yaratmaq məqsədi ilə məlum Sumqayıt hadisələri törədildi, Ermənistanda öz tarixi torpaqlarında yaşayan 250 minə qədər soydaşımız ata-baba yurdlarından qovuldu. 1990-cı il yanvarın 20-də Bakıya sovet qoşun hissələrinin yeridilməsi və günahsız insanların amansızcasına qətlə yetirilməsi, paytaxt küçələrinin qana boyanması xalqımıza qarşı düşmənçilik siyasətinin kulminasiya nöqtəsi oldu.

Həmin dövrdə Moskvada yaşayan Heydər Əliyev heç bir təqib və təzyiqdən çəkinməyərək, xalqımıza qarşı silah tətbiq edilməsinə qətiyyətlə etiraz etmiş və haqq səsimizi dünya ictimaiyyətinə bəyan etmişdi. Moskvada Azərbaycanın daimi nümayəndəliyində verdiyi bəyanatla o, 20 Yanvar cinayətinin mahiyyətini və səbəblərini, bu faciəni törədən qüvvələrin niyyətlərini açıq şəkildə göstərmişdi.

Təəssüf ki, 20 Yanvar şəhidlərinin qanı bahasına hakimiyyətə gələn Ayaz Mütəllibov öz sələfi, milli qeyrətdən və mənlikdən uzaq olan, Azərbaycanın düçar edildiyi müsibəti sona qədər dərk etməyən Əbdürrəhman Vəzirovun yeritdiyi milli xəyanət və təslimçilik siyasətini daha geniş miqyasda davam etdirdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, Ayaz Mütəllibov rejimi hələ də keçmiş imperiya mərkəzinə yarınmaq siyasəti yeridirdi. Ermənistanın Azərbaycana qarşı açıq təcavüzünün qarşısını almaq, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyini təmin etmək, ordu quruculuğuna başlamaq və digər tədbirləri görmək əvəzinə o, şəxsi hakimiyyətini qorumağa çalışır, Moskvadakı ağaları ilə Bakıda iqti-dara gəlməyə can atan Azərbaycan Xalq Cəbhəsinin liderləri arasında siyasi oyunlara baş vururdu. Ölkədə xaos, özbaşınalıq hökm sürürdü. Paytaxtda və digər şəhərlərdə qanunsuz silahlı birləşmələr, quldur dəstələri meydan sulayırdılar. Yaranmış vəziyyətdən istifadə edən Ermənistan işğalçılıq siyasətinin miqyasını daha da genişləndirirdi. AXC ilə A.Mütəllibov arasında hakimiyyət uğrunda didişmənin getdiyi bir vaxtda XX əsrin ən böyük faciəsi olan, bu gün də ağrı-acısını yaşadığımız Xocalı faciəsi törədildi. Xalqımızın milli heysiyyətinə dəhşətli zərbə vuruldu. Həmin ilin may ayında alınmaz qala sayılan Şuşa şəhəri ermənilərə təhvil verildi.



Hakimiyyətdən rüsvayçılıqla uzaqlaşdırılan A.Mütəllibovun yerini AXC-nin "meydan qəhrəmanları" tutdular. Qarabağ problemini həll etmək və ölkədə "demokratiya" yaratmaq şüarları ilə hakimiyyətə gələn qüvvələr səriştəsiz və naşı siyasətləri ilə qısa müddətdə ölkəni fəlakət girdabına, vətəndaş müharibəsi və parçalanma həddinə gətirib çıxardılar. Nadan siyasətbazların hakimiyyəti dövründə ölkədə iqtisadi böhran dərinləşmiş, xalqın həyat səviyyəsi xeyli pisləşmişdi. Vəzifə sahiblərinin fərsizliyi, təcrübəsizliyi, naşılığı yalançı "demokratik" iqtidarın iç üzünü, onun xalqdan uzaqlığını, sosial dayaqlardan məhrum olduğunu göstərirdi. Xarici siyasət sahəsində yol verilən kobud səhvlər Azərbaycanın dünya miqyasında təklənməsinə, bir sıra dövlətlərlə qarşılıqlı münasibətlərinin gərginləşməsinə gətirib çıxarmışdı.

... 1990-cı ildə o vaxtkı ittifaq və respublika rəhbərliyinin yaratdığı bütün maneələrə baxmayaraq, Heydər Əliyev Naxçıvana köçmüşdü. Bütün əhalinin istəyi ilə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, sonra isə muxtar respublikanın Ali Məclisinin sədri seçilmişdi. Məlum hadisələrlə əlaqədar olaraq Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan nəqliyyat yolları kəsilmiş, muxtar respublikaya Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdu. Əvvəlcə A.Mütəllibov rejiminin, sonra isə AXC-Müsavat iqtidarının Naxçıvana ögey münasibətinə baxmayaraq, Heydər Əliyev muxtar respublikanın ağır vəziyyətdə yaşamasını və inkişafını, əhalinin normal fəaliyyətini təmin edə bildi. Azərbaycanın bu qədim diyarının çoxsaylı problemlərlə üzbəüz qaldığı bir şəraitdə onun təşkilatçılıq qabiliyyəti sayəsində Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək erməni işğalı təhlükəsinin qarşısını aldı, Naxçıvanın muxtariyyət statusunu qoruyub saxladı.

Respublikada vəziyyət isə günbəgün pisləşirdi. 1988-ci ildən başlanan siyasi, dövlət və hakimiyyət böhranı AXC-Müsavat rejiminin bir illik iqtidarı dövründə daha da dərinləşmişdi. Azərbaycana düşmən olan qüvvələr ölkə daxilindəki əlaltılarının köməyi ilə hərc-mərcliyi gücləndirməyə, etnik qarşıdurmalara və vətəndaş müharibəsinə zəmin hazırlamağa səy göstərirdilər. Xalqın potensial qüvvələrini bir şəxsiyyətin ətrafında birləşdirərək, milli dövlətçiliyini gözləyən təhlükələrə müqavimət göstərməyə qadir olan mütəşəkkil siyasi qüvvənin yaradılması zərurəti meydana gəlmişdi.

Ölkədə gedən prosesləri və baş verə biləcək təhlükələri qabaqcadan görən ziyalılar, ağsaqqallar, sadə əmək adamları Naxçıvana, Heydər Əliyevin yanına gedərək ondan hakimiyyətə qayıtmağı təkidlə xahiş edirdilər. 1992-ci ilin oktyabrında Heydər Əliyevə Bakıdan 91 nəfər ziyalının imzası ilə müraciət göndərildi. Müraciətdə Heydər Əliyevin rəhbərliyi ilə yeni bir partiyanın yaradılması haqqında fikirlər öz əksini tapmışdı. Sənəddə bildirilirdi ki, belə bir partiyaya rəhbərlik etməyə qadir olan yeganə, mütləq lider Heydər Əliyev ola bilər. Və yalnız bu halda partiya öz qarşısına qoyduğu məqsədə çatar.

Sonralar "91-lər"in bu müraciəti haqqında YAP-ın 10 illiyinə həsr olunmuş yubiley mərasimində Heydər Əliyev belə demişdir: ***"Bizim partiyanın əsası ona***

***görə möhkəmdir, ona görə güclüdür ki, biz heç bir təsadüfi fikirlərlə yaşamamışıq. Mənə göndərilən o müraciətdə də, bir tərəfdən, Azərbaycandakı vəziyyətlə əlaqədar həyəcan təbili vurulurdu, ikinci tərəfdən, Azərbaycan haqqında qayğı, düşüncələr, Azərbaycanın gələcəyi haqqında narahatlıq və eyni zamanda, bu müraciətin həm siyasi, həm də məntiqi nöqteyi-nəzərdən lazımi səviyyədə əsaslandırılması vardı. Bəli, o sənədi bu gün də siyasi ekspertizaya vermək olar. Nəticə o olacaqdır ki, nə qədər ağıllı bir müraciət idi."***

Möhtərəm Heydər Əliyevin Azərbaycanın xilası naminə, xalqın mütəşəkkil tələbi və istəyi ilə YAP-a rəhbərlik etməyə razılıq verməsi dahi siyasətçinin böyük siyasətə qayıdışının əsasını qoydu və beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Azərbaycanın müasir və gələcək tarixində, xalqımızın taleyində mühüm rol oynayan və bundan sonra da mühüm rol oynayacaq Yeni Azərbaycan Partiyası yaradıldı və bütün varlığı, mənəviyyatı, fəaliyyəti ilə xalqa bağlı olan böyük siyasi və dövlət xadimi Heydər Əliyev partiyanın sədri seçildi.

Yeni Azərbaycan Partiyası o zaman Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışan, o vaxtkı iqtidarın təzyiq və hücumlarına məruz qalan Heydər Əliyevin bütün ölkədə həqiqi tərəfdarlarını mütəşəkkil və sanballı siyasi təşkilatda birləşdirdi. Bu hadisə bir siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin Azərbaycandakı nüfuzunu, xalqın ona inamının və məhəbbətinin nə qədər böyük olduğunu əyani surətdə sübut etdi və bütün dünyaya nümayiş etdirdi.

... 1993-cü ilin əvvəllərində Bakıda hakimiyyət tam iflic vəziyyətinə düşmüşdü. AXC-Müsavat rejiminin səriştəsizliyi və acizliyi üzündən hərc-mərcliyin dövlət həyatının bütün sahələrinə sirayət etməsindən, ölkədə hökm sürən başıpozuqluqdan, hakimiyyət uğrunda didişmədən, əslində milli ordunun olmamasından istifadə edən təcavüzkar Ermənistan Respublikası bir-birinin ardınca torpaqlarımızı işğal edir, yüz minlərlə soydaşımızı yerindən-yurdundan didərgin salırdı.Sürətlə gedən dağılma prosesinin məntiqi nəticəsi kimi, 1993-cü ilin ortalarında Azərbaycan real vətəndaş müharibəsi təhlükəsi, separatçılıq meylləri ilə üz-üzə dayanmışdı. Azərbaycan parçalanmaq, bir dövlət kimi məhv olmaq fəlakətinin lap yaxınlığında idi.

O vaxt elə görünürdü ki, Azərbaycan hər tərəfdən onun üstünə ayaq açan təhlükələrin qarşısında duruş gətirə bilməyəcək, çətinliklə əldə etdiyi müstəqilliyi əsrin əvvəllərindəki kimi yenə də itirəcək, xalqımız kölə vəziyyətinə düşəcəkdir.

Lakin xoşbəxtlikdən belə olmadı, çünki Azərbaycan xalqının Heydər Əliyev kimi dahi övladı vardır. Dar ayaqda xalq öz övladını köməyə çağırdı, Heydər Əliyev isə canından artıq sevdiyi xalqının səsini eşidib onun imdadına çatdı və "Xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram" söyləyərək, özünü alovlara atdı.

Həqiqi lider olan nəhəng şəxsiyyətlərin tarixi qayıdışı nadir hadisədir, onun şahidi olmaq da hər nəslin qismətinə düşmür. Bu mənada biz özümüzü xoşbəxt insanlar saya bilərik, ona görə ki, zəmanəmizin böyük siyasi möcüzələrindən



birinin – Heydər Əliyevin tarixi qayıdışının şahidləriyik. Bu qayıdış müstəqil Azərbaycan Respublikasını XX əsrin əvvəllərindəki Xalq Cümhuriyyətinin aqibətindən, xalqımızı isə məhv olmaq təhlükəsindən qurtardı. Tamamilə təbiidir ki, sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq möhtərəm Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü "Milli qurtuluş günü" kimi dəyərləndirmişdir.

Ötən illərdə möhtərəm Prezidentimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmişdir. Bu illərdə möhtərəm Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradə sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış siyasi, dövlət və hakimiyyət böhranı, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırılmış, dövlət çevrilişi cəhdlərinin, terror aktlarının qarşısı alınmışdır.

Müharibə vəziyyətində olan dövlətə layiq milli ordu yaradılmış, cəbhə xəttində atəşkəs elan edilmiş, Dağlıq Qarabağ münaqişəsinin dinclikIə nizama salınmasına dair danışıqlara təkan verilmişdir. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın qəsbkarlıq və dövlət terrorizmi siyasətinin ifşa edilməsi üçün ardıcıl tədbirlər görülür. Bu yaxınlarda Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Dağlıq Qarabağı nəzarətdən kənar zona elan etməsi haqq işimizin dəstəklənməsinə nail olmaq istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olmuşdur. Mən Qarabağ probleminin sülh yolu ilə həll ediləcəyi, ərazi bütövlüyümüzün bərpa olunacağı, 1 milyon qaçqın və köçkün soydaşımızın doğma yurdlarına dönəcəyi günləri indidən görürəm. Buna bütün Azərbaycan xalqı qəlbən əmindir.

Daxili ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi nəticəsində Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənilməsinə dair xarici neft şirkətləri ilə 20-dən çox saziş imzalanmış, Azərbaycan iqtisadiyyatına milyardlarla dollar məbləğində investisiya cəlb edilmişdir. Adambaşına düşən investisiya həcminə görə respublikamız MDB məkanında ilk yerlərdən birini tutur. Neftdən götürüləcək gəlirdən xalqın mənafeyi üçün daha səmərəli istifadə edilməsi məqsədi ilə Neft Fondu yaradılmışdır. Möhtərəm Prezidentimizin yeni neft strategiyası iqtisadiyyatın digər sahələrinə də investisiya cəlb olunmasına kömək etmiş, tənəzzüldə olan sənaye müəssisələrinin işinə təkan vermişdir.

Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, hakimiyyət bölgüsünə və demokratik təsisatların yaranmasına, qanunun aliliyinə təminat verən yeni Konstitusiya ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş, demokratik şəraitdə parlament seçkiləri keçirilmişdir. Bu barədə möhtərəm Prezidentimiz belə demişdir: **"1995-ci ildə müstəqil Azərbaycanın ilk milli Konstitusiyası qəbul olundu. Həmin il Azərbaycanın ilk Milli Məclisi seçildi. Baxmayaraq ki, 1995-ci ildə biz hələ ağır iqtisadi vəziyyətdə yaşayırdıq, ictimai-siyasi vəziyyət ardıcıl surətdə**

**sabitləşdirildi. Bunların hamısı bizə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycana xarici investisiyanın cəlb edilməsini təmin etmək, Azərbaycan ordusunu yaratmaq, onu möhkəmləndirmək və insanların rifah halını yaxşılaşdırmaq üçün imkanlar yaratdı.**

**Mən qeyd etdim ki, Konstitusiyanı qəbul etdik və bu müddətdə çoxsaylı qanunlar qəbul etdik. Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur. Azərbaycanı keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna da nail olmuşuq. Məhz bunların nəticəsində indi Azərbaycanda demokratik, hüquqi dövlət öz fəaliyyətini uğurla həyata keçirir. Azərbaycan xalqı bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxıbdır. Azad, sərbəst yaşayır. Demokratiyanın verdiyi bütün imkanlar Azərbaycanın hər bir vətəndaşı üçün təmin olunubdur. Söz azadlığı, vicdan azadlığı, fikir azadlığı, fikir müxtəlifliyi – bunların hamısı Azərbaycanın bugünkü gerçəkliyidir."**

Ötən dövrdə dövlət hakimiyyətinin bir şaxəsi kimi Milli Məclis ölkədə əsaslı islahatların həyata keçirilməsini fəal surətdə dəstəkləyərək, öz öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır. Parlamentimiz Konstitusiya ilə müəyyənləşdirilən səlahiyyətlərini yerinə yetirərək, öz fəaliyyətini demokratiya, plüralizm, qanunun aliliyi prinsipləri üzərində qurmuşdur. Azərbaycanın dünya birliyinə inteqrasiyası, bu məqsədlə cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsi üçün qanunvericilik bazasının yaradılması, möhkəmləndirilməsi və təkmilləşdirilməsi vəzifəsini qarşıya qoyan Milli Məclis qanun yaradıcılığı işində dünyanın qabaqcıl demokratik ölkələrinin təcrübəsindən bəhrələnmiş, qanunvericilik fəaliyyətində böyük nailiyyətlər qazanmışdır. 1995-ci ildən bu günədək Milli Məclisdə 1500-ə qədər qanunvericilik aktı qəbul edilmişdir. Ölkənin hüquq mühafizə və məhkəmə sistemi Avropa standartları səviyyəsində yenidən qurulmuş, özəlləşdirmənin və aqrar islahatların həyata keçirilməsi üçün lazımi qanunlar qəbul olunmuşdur.

Ölkə ictimai həmrəylik və iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. 1995-ci ildən istehsalın tənəzzülü dayandırılmış, milli valyutamız möhkəmləndirilmişdir. Ümumi daxili məhsul hər il nəzərəçarpacaq dərəcədə artır, əhalinin həyat səviyyəsi ilbəil yüksəlir. Müstəqil dövlətimizin və xalqımızın xoşbəxt gələcəyinə inam hissi insanların şüuruna hakim kəsilmişdir. Elm, təhsil, mədəniyyət və incəsənətə xüsusi dövlət qayğısı göstərilməkdədir.

Yer kürəsinin müxtəlif bölgələrində yaşayan soydaşlarımızın milli mənlik şüuru və azərbaycançılıq ideyası əsasında sıx birləşdirilməsi, xarici ölkələrdə azərbaycanlı icmalarının möhkəmləndirilməsi, güclü diasporumuzun formalaşdırılması sahəsində görülən işlər öz bəhrələrini verməkdədir. Soydaşlarımızın tarixi vətənlə əlaqələrini inkişaf etdirmək məqsədi ilə 2001-ci ilin noyabr ayında Bakıda dünya azərbaycanlılarının I qurultayı keçirilmiş və möhtərəm Prezidentimizin fərmanı ilə ayrıca dövlət qurumu yaradılmışdır. Dünya azərbaycanlılarının həmrəyliyinə və yekdilliyinə nail olmaq yönündə görülən işlər Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.



1993-cü ildən sonra möhtərəm Heydər Əliyevin səyləri nəticəsində dünyanın ən nüfuzlu dövlətlərindən olan Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası, Fransa Respublikası, İran İslam Respublikası, Çin Xalq Respublikası ilə normal əlaqələr bərpa və inkişaf etdirilmiş, Böyük Britaniya, Norveç, İtaliya, Almaniya, Yaponiya kimi ölkələr ilə sıx tərəfdaşlıq münasibətləri qurulmuş, Türkiyə Cümhuriyyəti ilə əlaqələrimiz isə "bir millətin iki dövləti"nin münasibətləri səviyyəsinə yüksəlmişdir. Ümumiyyətlə, Azərbaycan Respublikası dünyanın bütün dövlətləri ilə dostluq münasibətləri qurmaq məqsədi ilə ardıcıl iş aparır. Şəraiti obyektiv qiymətləndirərək, təsadüfləri zərurətdən ayıra bilən, beynəlxalq siyasət meydanında yeni yaranan meylləri öz ölkəsi üçün əlverişli məcraya yönəltməyi bacaran möhtərəm Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir ki, bu gün bütün dünyada Azərbaycana böyük diqqətlə yanaşır, Yer kürəsinin müxtəlif bölgələrində baş verən hadisələr barəsində rəyini dinləməyə çalışırlar.

2001-ci il sentyabrın 11-də ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində törədilmiş dəhşətli terror aktlarından sonra möhtərəm Prezidentimiz Azərbaycan Respublikasının beynəlxalq terrorizmə qarşı hərəkatın ön sıralarında olduğunu və bu dəhşətli bəlanın kökünün kəsilməsi üçün mümkün olan bütün yardımları göstərəcəyini bəyan etmişdir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, dünyanın tərəqqipərvər qüvvələrinin antiterror koalisiyasının fəal üzvü kimi Azərbaycan çox böyük etibar və nüfuz qazanmışdır.

Hazırda Azərbaycan Respublikası Qafqaz kimi geosiyasi əhəmiyyətli bir bölgədə sabitləşdirici rol oynayan, demokratik inkişaf yolu ilə qətiyyətlə irəliləyən, Avropa ilə Asiyanı daha sıx birləşdirəcək iri iqtisadi layihələrin həyata keçirilməsində mərkəzi mövqe tutan bir dövlətdir. Azərbaycan bölgənin iqtisadi tərəqqisinə təkan verəcək qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin və Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün nəzərdə tutulan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi kimi nəhəng layihələrin əsas iştirakçılarından biridir. Bu istiqamətdə görülən işlər möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının bölgədə lider mövqelərinin daha da möhkəmlənəcəyi günlərdən xəbər verir.

Bu gün müstəqil dövlətimiz Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, Avropa Şurasının, Parlamentlərarası İttifaqın, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, İqtisadi Əməkdaşlıq Təşkilatının və digər nüfuzlu beynəlxalq təşkilatların bərabər hüquqlu üzvü, GUÖAM regional qurumunun təşəbbüsçüsü və fəal iştirakçısıdır.

Ən böyük nailiyyətlərimizdən biri Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsidir. Bu nüfuzlu beynəlxalq təşkilata tam hüquqlu üzv olmaq Azərbaycanın Avropa ailəsi ilə siyasi cəhətdən bütünləşməsi prosesinə yekun vurmuşdur.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycanı təmsil etmək üçün Milli Məclisin deputatı, YAP sədrinin birinci müavini İlham Əliyevin rəhbərliyi ilə daimi nümayəndə heyəti yaradılmışdır. Nümayəndə heyəti AŞPA-nın iclaslarında Azərbaycan həqiqətlərinin izah edilməsi, işğalçı Ermənistan dövlətinin iç üzünün açılıb göstərilməsi üçün dəyərli işlər görür, ölkəmiz üçün mühüm məsələlərdə Avropa ictimaiyyətinin dəstəyini qazanmağa nail olur.

İlham Əliyev Avropa Şurasının yüksək tribunasından dəfələrlə çıxış edərək, müzakirə olunan məsələlərə dair Azərbaycan tərəfinin mövqeyini əsaslandırmışdır. O, təşkilatın 2001-ci il aprel sessiyasındakı çıxışında bildirmişdir ki, Azərbaycan torpaqlarını Ermənistanın zəbt etməsi nəticəsində Dağlıq Qarabağda və onun ətrafında qanunsuz əməliyyatlar keçirilir. Burada xüsusən narkotik bitkilərin becərilməsi, emalı və nəqli, habelə narkotik vasitələrin istehsalından əldə edilən gəlir hesabına terrorçu dəstələrin və qanunsuz silahlı birləşmələrin hazırlanması böyük narahatlıq doğurur. Məhz İlham Əliyevin təşəbbüsü ilə AŞPA-da "Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında" sənəd yayılmışdır. Həmin sənəddə əsirlikdə olan vətəndaşlarımızın dözülməz vəziyyətindən, Ermənistanın bu məsələyə cinayətkar münasibətindən bəhs edilir.

Ümumiyyətlə, nümayəndə heyətimiz təşkilatın Parlament Assambleyasında regiondakı durumla bağlı 20-dən çox sənəd yaymışdır. Təşkilatın 2002-ci il payız sessiyasında nümayəndə heyətimiz daha bir böyük nailiyyət əldə etmişdir. Sessiyada Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktını vurğulayan sənəd qəbul olunmuşdur. Avropa Şurası ilk Avropa təşkilatı kimi Ermənistanın respublikamıza təcavüzünü rəsmən tanımışdır.

Təşkilatın 2003-cü il qış sessiyasında, yanvarın 27-də nümayəndə heyətimizin rəhbəri İlham Əliyev yekdilliklə bu qurumun sədr müavini və Büro üzvü seçilmişdir. Qeyd etmək istəyirəm ki, İlham Əliyev Azərbaycan tarixində belə nüfuzlu beynəlxalq təşkilatda yüksək vəzifəyə seçilmiş ilk siyasətçidir. Vaxtilə Kremlin zirvəsinə yüksələn Heydər Əliyev şəxsiyyətinin, onun yaratdığı siyasi məktəbin layiqli yetirməsi, davamçısı olan İlham Əliyev bu gün Avropa Şurasının Parlament Assambleyasında yüksək zirvəni fəth etmişdir. Xalqımız öz sevimli oğlu İlham Əliyevin diplomatik uğurunu Prezidentimiz möhtərəm Heydər Əliyevin apardığı müdrik xarici siyasətin davamı kimi qiymətləndirir.

Respublikamız üçün tarixi əhəmiyyət daşıyan bu hadisə, eyni zamanda, Avropa Şurası tərəfindən ölkəmizə olan böyük hörmətin və müsbət münasibətin bariz nümunəsidir. İlham Əliyevin Büroya üzv seçilməsi Azərbaycanın milli maraqlarını təmin edən ciddi amildir. Belə ki, təşkilatın sessiyalarında gündəliyə çıxarılan məsələlərə və rəhbərlik tərəfindən qaldırılan problemlərə münasibət yalnız Büronun iclaslarında həll edilir. Bu gün qətiyyətlə deyə bilərik ki, Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı keyfiyyətcə yeni mərhələyə qədəm qoyur.

Müstəqillik illərində əldə etdiyimiz nailiyyətləri sadaladıqca hər bir azərbaycanlının qəlbi qürur hissi ilə dolur. Bu uğurların qazanılmasında bütün şüurlu



həyatını xalqına, vətəninə həsr etmiş, milli tariximizə qurucu və xilaskar rəhbər kimi daxil olmuş Heydər Əliyevin xidmətləri əvəzsizdir. Onun səyləri ilə Azərbaycanın dövlət müstəqilliyi "əbədi, dönməz və sarsılmaz" olmuşdur.

Azərbaycanın siyasi, ictimai, iqtisadi, mədəni, sosial həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev qüdrəti, Heydər Əliyev qayğısı, Heydər Əliyev yanğısı hiss edilməsin. Heydər Əliyev qədər xalqına yaxın olan, onun bütün milli xüsusiyyətlərini bilən, inkişafı üçün bütün qüvvə və bacarığını sərf edən, öz xalqı ilə qürrələnən az siyasətçi vardır.

Xalqımız sevimli rəhbərinin anadan olmasının 80 illik yubileyinə böyük sevinc hissi ilə hazırlaşır, yeni minillikdə də müstəqil dövlətimizi təhlükələrdən inamla keçirərək xoşbəxt gələcəyə aparan ümummilli lideri ilə fəxr edir. İnanıram ki, qarşıdan gələn Prezident seçkilərində də qədirbilən xalqımız ölkənin idarə olunmasını müdrik rəhbəri Heydər Əliyevə həvalə edəcəkdir. Bütün ölkə vətəndaşları əmindirlər ki, Heydər Əliyev kimi dahi siyasətçinin və uzaqgörən dövlət xadiminin köməyi ilə Azərbaycan öz qarşısında duran problemləri tezliklə həll edəcək və tanrının xalqımıza bəxş etdiyi bu nadir dühanın rəhbərliyi ilə daha yüksək zirvələr fəth edərək, qədim tarixinin yeni-yeni şanlı səhifələrini yazacaqdır!